# Azərbaycan uşaq ədəbiyyatı biblioqrafiyasına qiymətli töhfə

**Müasir ədəbiyyatımızın görkəmli nümayəndəsi, Azərbaycan uşaq ədəbiyyatının tədqiqində və zənginləşməsində misilsiz xidmətləri olan Zahid Xəlil tanınmış şair, nasir, publisist və dramaturqdur.**

Ədəbiyyat aləminə uşaq şeiri ilə gələn Zahid Xəlilin qələm təcrübəsi olan ilk şeiri 1958-ci ildə orta məktəbin X sinfində oxuyarkən "Vətənim" adı ilə "Yeni Yevlax" qəzetində çap olunmuşdur. Azərbaycan uşaq ədəbiyyatına yeni ideya, yeni ruh gətirmiş Z.Xəlil bütün yaradıcılığı boyu uşaqları düşündürən, onları maraqlandıran mövzularda əsərlər yaratmışdır.

Zahid Xəlil ədəbi-bədii yaradıcılıqla yanaşı, Azərbaycan uşaq ədəbiyyatının keçmişinə, tarixinə və ümumiyyətlə, ədəbiyyatın bu istiqamətinin dərinliklərinə nüfuz edərək, öz tədqiqatçılıq fəaliyyətini uğurla davam etdirərək 1974-cü ildə "Azərbaycan uşaq poeziyası və folklor" mövzusunda namizədlik, 1990-cı ildə "Azərbaycan uşaq ədəbiyyatının mənşəyi, təşəkkülünün əsas amilləri və inkişaf problemləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

Uşaq ədəbiyyatı sahəsində əldə etdiyi nailiyyətlərdə Zahid Xəlilin pedaqoji fəaliyyətinin də rolu vardır. Belə ki, o, 1970-ci ildən ADPU-da Azərbaycan ədəbiyyatı tarixi kafedrasında müəllim, 1991-ci ildə Ədəbiyyat və onun tədrisi metodikası kafedrasının professoru olmuş, 1997-ci ildə ADPU-nun pedaqoji fakültəsinin dekanı vəzifəsinə seçilmişdir, 2006-cı ildən ADPU-nun Ədəbiyyat və onun tədrisi kafedrasının müdiridir.

Zahid Xəlil ictimai, pedaqoji , publisistik yaradıcılıq fəaliyyəti ilə yanaşı, öz ədəbi-bədii yaradıcılığını uğurla davam etdirərək çoxsaylı kitablar, povest , hekayə və şeirlər yazmışdır. Zahid Xəlil pedaqoji fəaliyyəti ilə əlaqədar olaraq bir sıra dərslik və dərs vəsaitlərinin də müəllifidir.

Azərbaycan uşaq ədəbiyyatının görkəmli nümayəndəsi, Azərbaycan Jurnalistlər Birliyinin "Qızıl qələm" mükafatçısı olan Zahid Xəlil çoxşaxəli ədəbi-bədii, pedaqoji və ictimai fəaliyyətinə görə 2006-cı ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fərmanı ilə "Tərəqqi medalı"na layiq görülmüşdür.

Respublikmızda uşaq ədəbiyyatının, bu zəngin xəzinəni yaradanların, onların əsərlərinin təbliğində, mühafizəsində biblioqrafik informasiya mənbələri mühüm vasitədir.

Azərbaycanda ədəbiyyatşünaslıq üzrə biblioqrafik resursun mühüm bir istiqamətini təşkil edən uşaq ədəbiyyatı biblioqrafiyası zaman-zaman respublika kitabxanalarının biblioqrafik fəaliyyəti nəticəsində zənginləşmişdir.

Bu sahədə F.Köçərli adına Respublika Uşaq Kitabxanasının biblioqrafik fəaliyyəti daha çox diqqəti cəlb edir. Respublikamızda uşaq ədəbiyyatı üzrə tövsiyə biblioqrfik fəaliyyətin mərkəzi və baş kitabsaxlayıcısı hesab edilən F.Köçərli adına Respublika Uşaq Kitabxanası tərəfindən tərtib edilib nəşr olunmuş "Zahid Xəlil" biblioqrafik göstəricisi görkəmli uşaq yazıçısının həyatı, ədəbi-bədii, publisistik və pedaqoji fəaliyyətini əks etdirən universal məzmunlu, elmi-köməkçi, şəxsi xarakterli biblioqrafik vəsaitdir.

Biblioqrafik göstəricinin tərtibçisi peşəkar biblioqraf Bəybala Ələsgərov, elmi redaktoru filologiya üzrə fəlsəfə doktoru, dosent Füzuli Əsgərli, redaktoru F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktoru Fizurə Quliyevadır.

Elmi-köməkçi, şəxsi biblioqrafik göstəricilərin biblioqrafiyalaşdırma metodikasına uyğun olaraq materiallar Azərbaycan, rus, ingilis dillərində və xronoloji prinsip əsasında sistemləşdirilmişdir. Biblioqrafik göstəricinin dəyərini artıran cəhətlərdən biri vəsaitə Əməkdar elm xadimi, BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, BDU-nun Kitabxanaşünaslıq kafedrasının müdiri, tarix elmləri doktoru, professor Abuzər Xələfov tərəfindən çox əhatəli, məzmunlu "Görkəmli uşaq şairi və tədqiqatçısı haqqında biblioqrafiya" başlığı altında rəyin yazılmasıdır.

Şəxsi biblioqrafik göstərici "Tərtibçidən", beş hissə, hər bir hissə bölmə və yarım bölmələrdən, V hissə isə köməkçi göstəricilərdən ibarətdir."Tərtibçidən" başlığı altında verilmiş bölmədə müəllif biblioqrafik vəsaitin quruluşu, bölmələri, ədəbiyyatın sistemləşdirilməsi barədə məlumat vermişdir.

Bu məlumatda müəllifin bəzi fikirləri ilə razılaşmaq olmur. Belə ki, müəllif qeyd edir ki, "O, əvvəllər çap olunmuş biblioqrafik nəşrlərin təcrübəsindən bəhrələnmişdir". Daha sonra müəllif fikrini davam etdirərək yazır: "Kitab hazırlanarkən Azərbaycanın, MDB-nin və inkişaf etmiş Avropa ölkələrindən olan Almaniya, İngiltərə, həmçinin ABŞ və Türkiyənin bu sahədəki təcrübəsindən istifadə olunmuşdur".

Elmin müxtəlif sahələrində xarici ölkələrin təcrübəsindən yararlanmaq çox yaxşıdır. Lakin respublikamızda keçən əsrin 50-ci illərindən müasir dövrümüzə qədər formalaşmış və uğurla tətbiq edilən biblioqrafiyalaşdırma metodikasının zəngin təcrübəsi mövcuddur.Təkcə bir faktı qeyd etmək lazımdır ki, 1965-ci ildən etibarən "Azərbaycanın elm və mədəniyyət xadimləri" seriyası ilə nəşr edilmiş çoxsaylı biblioqrafik vəsaitlər və 2006-cı ildən M.F.Axundov adına Milli Kitabxana tərəfindən "Azərbaycanın görkəmli şəxsiyyətləri" seriyasında çap edilmiş biblioqrafik göstəricilər peşəkar biblioqraflar tərəfindən biblioqrafiyalaşdırma metodikasına əməl edilməklə tərtib edilib, bu gün də nəşr olunur.

Bizə belə gəlir ki, bu məlumatda müəllifin əsaslandığı fikirlər ziddiyyətlidir. Lakin bu fikirlər biblioqrafik göstəricinin elmi dəyərinə və məzmununa xələl gətirmir. Bu biblioqrafik göstərici müasir Azərbaycan uşaq ədəbiyyatının biblioqrafik üsulla tədqiqində uşaq ədəbiyyatının elmi-köməkçi biblioqrafiyasına qiymətli töhfədir.

Biblioqrafiyaşünaslıq nəzəriyyəsinə əsasən elmi-köməkçi biblioqrafik vəsaitlərin mətn biblioqrafiyasına gözəl nümunə olan "Zahid Xəlil" biblioqrafik göstəricisi əhatə etdiyi materiallara, zəngin faktiki mənbələrə görə uğurlu biblioqrafik fəaliyyətin nəticəsidir. Biblioqrafik göstəricidə yeri gəldikcə şairin əsərlərindən nümunələrin göstərilməsi vəsaitin elmi dəyərini artıran faktlardır.

Biblioqrafik göstəricinin I hissəsi "Zahid Xəlilin əsərlərinin nəşri haqqında məlumat" adlanır. Göstəricinin tərtibçisi Bəybala Ələsgərov bu başlıq altında Zahid Xəlilin tərcümeyi-halı, əsərlərinin yaranma tarixi və məzmunu haqqında, şairin yaradıcılığı haqqında görkəmli qələm sahiblərinin fikirlərini , bəzi kitablarından nümunələr göstərməklə Zahid Xəlil şəxsiyyəti haqqında bütün məqamları poetik bir dillə oxuculara çatdırmışdır. Bu məlumat vəsaitdə yalnız Azərbaycan dilində verilmişdir.

Vəsaitin "Həyat və fəaliyyətinin əsas tarixləri" bölməsi Azərbaycan, rus və ingilis dillərində xronoloji prinsip üzrə verilmişdir. Bu bölmədə Zahid Xəlilin anadan olduğu, ilk əsərlərinin nəşr tarixi, aldığı mükafatları, iştirak etdiyi beynəlxalq konfrans və konqreslərin tarixi, ümumiyyətlə, şairin 1942-ci ildən 2011-ci ilə qədər keçdiyi həyat yolu xronoloji ardıcıllıqla sistemləşdirilmişdir.

"Qələm dostları,ədəbiyyat, mədəniyyət xadimləri və oxucuları Zahid Xəlil haqqında" başlıqlı I hissənin sonuncu bölməsində şair haqqında qələm dostları, elm və mədəniyyət xadimləri çox səmimi, ürəkdən gələn qiymətli fikirlər söyləmişlər.

**Bu fikirlər içərisində Azərbaycan Müəllimlər Birliyinin üzvü Sərdar Məmmədovun - "Zahid Xəlili xoşbəxt bir insan sanıram. Çünki o, gələcəyimiz olan uşaq qəlbinin mühəndisidir" - fikri Zahid Xəlil şəxsiyyətini hərtərəfli səciyyələndirir.**

● **Sima İSMAYILOVA,**
***BMA-nın biblioqrafiyaşünaslıq kafedrasının baş müəllimi***